# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 408** **Bakı şəhəri, 23 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in təsdiq edilməsi haqqında" 2019-cu il 4 mart tarixli 73 nömrəli, "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 mart tarixli 140 nömrəli Qərarının ləğv edilməsi haqqında" 2020-ci il 16 yanvar tarixli 12 nömrəli, "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə" 2020-cı il 11 iyun 199 nömrəli və "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2020-ci il 30 dekabr tarixli 519 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 346-VIQD nömrəli Qanununun tətbiqi və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 avqust tarixli 1424 nömrəli Fərmanının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507; 2020, № 9, maddə 1239, № 10, maddələr 1281, 1291, № 11, maddə 1408) ilə təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.2.2-ci yarımbənddə "sağlamlıq imkanları məhdud şəxslər üçün arabaların" sözləri "əlilliyi olan şəxslər üçün təkərli oturacaqların" sözləri ilə əvəz edilsin;

1.2. 2.3.5-ci yarımbənddə "sağlamlıq imkanları məhdud şəxslərin arabaları" sözləri "əlilliyi olan şəxslərin təkərli oturacaqları" sözləri ilə əvəz edilsin;

1.3. 2.3.1.10-cu yarımbənddə "sağlamlıq imkanı məhdud" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

1.4. 2.3.7-ci yarımbənddə "sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 69) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 2.5-ci bəndinə "şəxsin fərdi identifikasiya nömrəsi (FİN)," sözlərindən sonra "həyat fəaliyyətinin əsas kateqoriyalarının məhdudlaşma dərəcələri" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789; 2021, № 5, maddə 504, № 6 (IV kitab), maddələr 662, 673, № 7, maddə 884; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 oktyabr tarixli 330 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın 2.1.3.2-ci yarımbəndində "sağlamlıq imkanları məhdud" sözləri "əlilliyi olan" sözləri əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1620; 2021, № 6 (IV kitab), maddə 670) ilə təsdiq edilmiş "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.10-cu bənddə "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin;

4.2. 2.11-ci bəndin ikinci cümləsində "əlillik dərəcəsi, əlilliyin səbəbi" sözləri "orqanizmin funksiyalarının pozulması faizi, səbəbi" sözləri ilə əvəz edilsin;

4.3. həmin Qaydaya 1 nömrəli əlavə - "Fərdi Reabilitasiya Proqramı" üzrə:

4.3.1. 10-cu bənddə "Əlillik dərəcəsi" sözləri "Orqanizmin funksiyalarının pozulması faizi" sözləri ilə əvəz edilsin;

4.3.2. 27-ci bəndin cədvəlinin "Psixoloji-pedaqoji reabilitasiya tədbirlərinin adı" sütununun dördüncü sətrində "Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara" sözləri "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri ilə əvəz edilsin.

**5.** Bu Qərar 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2021.- 26 dekabr.- S.6.